# Şəhid ailələri və müharibə əlilləri dövlətimizin diqqət mərkəzindədir



***44** gün davam edən Vətən müharibəsində Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz düşməni acı məğlubiyyətə uğradaraq, torpaqlarımızdan qovub çıxardı. "Dəmir yumruqla" başı əzilən düşmən Azərbaycan əsgəri qarşısında diz çökdü və kapitulyasiya aktını imzalamağa məcbur oldu. Vətən müharibəsində parlaq qələbə, təbii ki, qəhrəman şəhid və qazilərimizin canı-qanı bahasına əldə edildi. Elə buna görə də postmüharibə dövrü başlanan kimi, müharibə əlilləri və şəhid ailələrinə dəstək layihələrinə start verildi.*

Dövlətimizin başçısının və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müvafiq göstərişləri əsasında şəhid ailələri və müharibə əlilləri üçün yaşayış komplekslərinin, şəhərciklərin inşa edilməsi, reabilitasiya mərkəzlərinin istifadəyə verilməsi də bunun bariz ifadəsidir.

Bütün bunlar –humanizm prinsiplərinə sadiqlik, sosial qayğıya ehtiyacı olan insanlara xüsusi diqqət Azərbaycan Prezidenti İlham Əliyevin idarəçilik konsepsiyasınında prioritet istiqamətlərdən biri olduğunu göstərir. Bu baxımdan şəhid ailələri və müharibə əlillərinə həssas münasibət ölkəmizdə yüksək səviyyədədir. Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müvafiq göstərişlərinə əsasən dövlət qurumları tərəfindən bu kateqoriyadan olan şəxslərin problemləri ilə daim yaxından maraqlanılır, onların çətinliklərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir.

İkinci Qarabağ müharibəsində şəhid olmuş qəhrəmanlarımızın ailə üzvlərinə və müharibə əlillərinə aidiyyəti təşkilatlar tərəfindən qayğı dövlət qurumlarının mühüm borcuna, vəzifəsinə çevrilib. Bu isə cəmiyyətdə birliyin və qarşılıqlı etimadın yeni təzahür forması kimi bütün təbəqələrdən olan insanlar tərəfindən xoş ovqatla qarşılanaraq, onların dövlətimizə və Prezidentimizə inam hisslərini gücləndirib.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın mayın 2-də Bakının Sabunçu rayonunda şəhid ailələri və müharibə əlilləri üçün nəzərdə tutulan yeni yaşayış kompleksinin açılışında iştirakları da bunun parlaq nünayişinə çevrildi. Ölkə rəhbəri şəhid Mahir Məmmədovun ailə üzvləri ilə söhbətində dedi: "Biz bütün şəhidlərimizin ailələrinin məişət problemlərini həll etməyə çalışırıq və çalışacağıq. Bu, bizim borcumuzdur. Prezident kimi mənim və dövlətimizin borcudur…".

Ölkə rəhbəri söhbətində Birinci və İkinci Qarabağ döyüşlərində qəhrəmancasına şəhidlik zirvəsinə yüksələn oğullarımızın itkisinin çox ağır olduğunu, bu itki ilə barışmağın mümkünsüzlüyünü bir daha xatırladaraq, vaxtın, zamanın da bu yaranı sağalda bilməyəcəyini vurğulayıb. Dövlətimizin başçısı sözlərinə onların xatirəsinin, qəhrəmanlığının daim yaşayacağını, Azərbaycan vətəndaşlarının, bütün dünya azərbaycanlılarının şəhidlərimizlə fəxr duyduqlarını əlavə edərək, deyib: "Onlar bizim üçün qürur mənbəyidir və bu, Azərbaycan xalqı durduqca əbədi olacaq. Biz onların xatirəsini əbədi yaşadacağıq. Onların qəhrəmanlığı heç vaxt bizim yaddaşımızdan, sonrakı nəsillərin ürəyindən silinməyəcək. Şəhidlər ölmür, biz bunu artıq dəfələrlə demişik, onlar bizimlədir. Çünki onların xatirəsi yaşayır…".

Prezident İlham Əliyev bütün çıxışlarında, söhbətlərində şəhid ailələri və müharibə əlillərinə həssas münasibətin təsadüfi xarakter daşımadığını, bu məsələnin dövlət siyasətində prioritet istiqamət kimi yanaşılmasının məntiqi nəticəsi olduğunu xatırladıb.

Ümumiyyətlə, ümummilli liderimiz Heydər Əliyevin xalqın təkidi ilə yenidən ölkə rəhbəliyinə gəlməsi ilə mühüm önəm verilən bu xətt möhtərəm dövlət başçımızın prezidentlik fəaliyyətinin ötən dövründə daim diqqət mərkəzində saxlanılıb. Belə ki, son 18 il ərzində yüzlərlə şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin olunub. Bu siyasət postmüharibə dövründə xüsusilə geniş vüsət alıb. Prezident İlham Əliyevin göstərişi ilə Vətən savaşından sonra gerçəkləşdirilən sosial dəstək paketi 100 min şəxsi əhatə edib, onlara 166 min xidmət göstərilib.

Sosial məsələlərin həlli ilə bağlı ortaya qoyulan siyasi iradə və ardıcıl praktik addımlar deməyə əsas verir ki, Azərbaycan sosialyönümlü dövlət modeli formalaşdırıb. Qlobal bazardakı dəyişikliklərdən, tələb-təklifdən, yeni çağırışlardan qaynaqlanan islahatlar belə, sosialyönümlü tədbirlərlə kompensasiya edilir. Başqa sözlə, bazar iqtisadiyyatının möhkəmlənməsi üçün kompleks layihələr sistemi əhalinin sosial baxımdan nisbətən zəif təbəqəsinin maraqlarına xidmət göstərir.

Bu siyasət postmüharibə dövründə xüsusilə geniş vüsət alıb. Prezident İlham Əliyevin göstərişi ilə bu mərhələdə icra olunan sosial dəstək paketi 100 min şəxsi əhatə edib, onlara 166 min xidmət göstərilib. Bu dövr ərzində şəhid ailə üzvləri və müharibə iştirakçılarından ibarət 93 min nəfərə 103 min sosial ödəniş təyin olunub. Mənzil proqramı 5 dəfə genişləndirilib, 2021-ci ildə 3 min, postmüharibə dövründə 3 min 500 mənzil verilib. Beləliklə, ümumilikdə 12 min 500 şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə, 7 min 400 müharibə əlili avtomobillə təmin edilib.

Yeri gəlmişkən, Prezident İlham Əliyev ötən il yanvarın 25-də "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncam imzalayıb. Xatırladaq ki, həmin sənəddə 2020-ci ildə ordumuzun həyata keçirdiyi hərbi əməliyyatlar zamanı şəhidlik zirvəsinə yüksələn qəhrəmanlarımızın ailələrinin və bu müharibə ilə əlaqədar əliliyi müəyyənləşdirilən şəxslərin də mənzil və ya fərdi evlə təminatı nəzərdə tutulub. Mayın 2-də Bakının Sabunçu rayonunda şəhid ailələri və müharibə əlilləri üçün nəzərdə tutulan yeni yaşayış kompleksi də məhz adıçəkilən sərəncam əsasında tikilərək, istifadəyə verilib.

Onu da bildirək ki, dövlətimizin başçısının 8 dekabr 2020-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə yaradılan "YAŞAT" Fondu tərəfindən qısa müddət ərzində mühüm işlər görülüb. Şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsi tədbirləri nəzərəçarpacaq dərəcədə gücləndirilib, o cümlədən onlara yönələn sosial ödənişlər dəfələrlə artırılıb.

Bütün bunlar Azərbaycan dövlətinin bu kateqoriyadan olan insanlara qayğısının parlaq ifadəsidir. Dövlətimizin başçısı bununla bağlı çıxışlarının birində deyib: "Azərbaycan bu sahədə də dünya miqyasında ən qabaqcıl yerlərdədir. Dünyada müharibələr çox olub, itkilər çox olub. O qədər də uzaq olmayan tarixə nəzər salsaq, görərik ki, müxtəlif ölkələrdə müharibələrdə həlak olmuş insanların yaxınlarına heç vaxt bizdəki qədər qayğı, diqqət göstərilməyib…Bizim bu sahədəki siyasətimiz birmənalıdır. Bu siyasət mənəvi normalara əsaslanır və Vətən uğrunda canından keçmiş insanların yaxınları dövlət tərəfindən bundan sonra da qayğı ilə, diqqətlə əhatə olunacaqlar. Son illər müavinətlərin, pensiyaların məbləğinin artırılması göz qabağındadır. Azərbaycan dövləti bu siyasəti bundan sonra da davam etdirəcək".

Prezident İlham Əliyevin son illərdəki çevik və praqmatik sosial siyasəti, vaxtında görülən qabaqlayıcı tədbirlər dünya iqtisadiyyatındakı mənfi proseslərin ölkəmizə təsirlərinin minimuma endirilməsinə imkan yaradır. Bu da bir daha təsdiq edir ki, Azərbaycanın uğurlu sosial siyasəti var, cəmiyyətin sosial sifarişinə uyğun çevik qərarlar qəbul edən dövlət başçısı İlham Əliyevin yürütdüyü siyasətdə isə vətəndaşların mənafeyi öndə gəlir.

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 5 may.- S.6.